AVRASİYA ƏMƏKDAŞLIQ FONDU

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

«AHT Platforması fəaliyyətdə» layihəsi

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün əlverişli mühitin inkişafı

Hafiz Həsənov

Holiday İnn oteli

16 İyun 2017

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün əlverişli mühitin inkişafı

- Həyata keçirilmiş fəaliyyətlər
- Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı
- Qeyri-hökumət təşkilatlarının qərarların qəbulu və ictimai nəzarət proseslərində iştirakının genişlənidirilməsi
- Qeyri-hökumət təşkilatlarının xidmətlər sahəsində iştirakının gücləndirilməsi
- Qeyri-hökumət təşkilatlarının fəaliyyətinin digər məsələləri

# Həyata keçirilən fəaliyyətlər

- AR Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Burada əsas fəaliyyətlərdən biri kimi "Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün əlverişli mühitin inkişafı ilə bağlı təkliflərin hazırlanması" nəzərdə tutulmuşdur.

- AR Prezidentinin "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrantların verilməsi prosedurunda "bir pəncərə" prinsipinin tətbiqi haqqında" 21 oktyabr 2016-cı il tarixli Fərmanı verilmişdir. Burada əsasən, qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyin əldə edilməsi prosedurunun sadələşdirilməsi, o cümlədən onun həm xarici donor, həm də resipiyentin müraciəti əsasında həyata keçirilməsinin təmin edilməsi nəzərdə tutulmuşdur.

# Həyata keçirilən fəaliyyətlər

- AR Prezidentinin 21 oktyabr 2016-cı il tarixli Fərmanına müvafiq olaraq Nazirlər Kabinetinin 11 yanvar 2017-ci il tarixli qərarı ilə "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası"nda və 24 yanvar 2017-ci il tarixli qərarı ilə "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"nda dəyişikliklər edilmişdir.

- Bu dəyişikliklərə müvafiq olaraq xarici donorlar tərəfindən qrantların verilməsi prosedurunda "bir pəncərə" prinsipi tətbiq edilmiş, qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyin əldə edilməsi üçün həm donorun, həm də resipyentin müraciəti təsbit edilmiş, təqdim edilməli sənədlərin dairəsi xeyli azaldılmış, qrant müqaviləsinin xidmət müqaviləsi kimi qeydə alınması imkanı yaradılmış və qaydalar sadələşdirilmişdir.

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

“Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında qanundan aşağıdakı maddələr çıxarılmalıdır:

- “Azərbaycan Respublikasında daimi yaşamaq hüququ olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində qeyri-hökumət təşkilatının təsisçisi və qanuni təmsilçisi ola bilərlər.” məzmunlu 9.1-1.-ci maddə;

- “Qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanına təqdim edir. Barəsində məlumat təqdim edilməmiş ianələr üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar aparıla bilməz.” məzmunlu 24-1.5.- ci maddə;

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

- 24-2.1.–ci maddədəki "Xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə qeydə alınması üçün qeyri-hökumət təşkilatı tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur." müddəası;

- "Müqavilə olmadan və ya qeydiyyata alınmamış müqavilə üzrə xidmətlər göstərən və ya işlər görən qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyır." məzmunlu 24-2.2.-ci maddəsi.

- Qeyri-hökumət təşkilatlarına məsuliyyət tədbiri kimi nəzərdə tutulan qeyri-hökumət təşkilatının fəaliyyətinin dayandırılmasını nəzərdə tutan 31.3., 31.3.1., 31.3.2. və 31.3.3.-cü maddələr;

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

- "Qeyri-hökumət təşkilatı illik maliyyə hesabatını hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim edir. Bu hesabatların forması, məzmunu və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir." məzmulu 29.4.-cü madddə;

- "Qeyri-hökumət təşkilatı illik maliyyə hesabatını bu Qanunun 29.4-cü maddəsində müəyyən edilmiş müddətdə təqdim etmədikdə müvafiq icra hakimiyyəti orqanı həmin təşkilata yazılı surətdə xəbərdarlıq etməklə müvafiq hesabatın 30 gün müddətində təqdim edilməsinə dair göstəriş verir. Bu müddətdə hesabat təqdim etməyən qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyır." məzmunlu 31.8.-cü madddə.

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

- "Qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi" adlı 30-1.-ci maddə.

Bu maddə çıxarılmadığı halda; "Qeyri-hökumət təşkilatlarının, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin öyrənilməsi Qaydaları"nda (Qaydalar) aşağıdakı müddəalar çıxarılmalıdır:

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

“QHT-lərin fəaliyyətinin öyrənilməsinin predmeti və məqsədi” hissəsindən “illik maliyyə hesabatlarının təqdim olunması, qrant, mühasibat uçotu haqqında qanunvericiliyə riayət edilməsi, maliyyə və təsərrüfat fəaliyyətinin qanunauyğunluğu” məzmunlu 2.1.4.-cü yarımbəndi və “qurumun fəaliyyəti ilə bağlı əlaqəli normativ hüquqi aktlara riayət edilməsi.” məzmunlu 2.1.5.-ci yarımbəndi;

“QHT-lərin fəaliyyətinin öyrənilməsi qaydası” hissəsinin 3.1.-ci bəndindəki “Ədliyyə orqanının rəhbərinin yazılı razılığı əsasında QHT-nin fəaliyyətinin öyrənilməsi müddəti 30 gün artırıla bilər.” müddəası və QHT-lərin fəaliyyətinin plandankənar öyrənilməsini nəzərdə tutan 3.3.-cü bənd, 3.3.1., 3.3.2., 3.3.3. –cü yarımbəndlər və 3.6.-cı bənddəki “plandankənar aparıldıqda isə azı 1 gün” sözləri;

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

- "ədliyyə orqanının əməkdaşlarına ayrıca yer ayırmaq, fəaliyyətin öyrənilməsi ilə əlaqədar əldə edilmiş sənədlərin qorunmasını, habelə surətçıxarma və tələb olunan digər texnikadan istifadə imkanının yaradılmasını təmin etmək;" məzmunlu 6.2.2.-ci bənd, "fəaliyyətinin öyrənilməsi zamanı yaranan bütün məsələləri çevik şəkildə həll etmək;" məzmunlu 6.2.3.-cü bənd və "ədliyyə orqanı əməkdaşlarının hüquqlarına riayət edilməsini təmin etmək." məzmunlu 6.2.4.-cü bənd.

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı:

- Xarici donorlar üçün nəzərdə tutulan qrant vermək hüququnun əldə edilməsi tələbi ləğv edilməlidir. Bunun üçün Qanunun 2-ci maddəsinin 5-ci hissəsindəki "Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnu əldə etdikdən sonra donor qismində çıxış edə bilərlər. Qrant vermək hüququnun əldə edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyi tələb olunur." müddəası və "Bu maddənin 5-ci hissəsində nəzərdə tutulmuş donorlar tərəfindən qrant vermək hüququnun əldə edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir" məzmunlu 5-1.-ci maddəsi çıxarılmalıdır.

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

Bu varianta müvafiq olaraq “Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası” da ləğv edilməlidir.

<u>Xarici donorlar üçün nəzərdə tutulan qrant vermək hüququnun əldə edilməsi tələbi ləğv edilmədiyi halda “Qrant haqqında” Qanunda aşağıdakı dəyişikliklər edilməlidir</u>:

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

- Qanunun 2-ci maddəsinin 5-ci hissəsindəki "Beynəlxalq təşkilatlar və onların nümayəndəlikləri, xarici hökumətlər və onların nümayəndəlikləri" sözlərindən sonraya "istisna olmaqla" sözləri əlavə edilməlidir. Bu dəyişiklik beynəlxalq təşkilatları və onların nümayəndəliklərini, həmçinin xarici dövlətlərin Azərbaycandakı səfirliklərini qrant vermək hüququnu əldə etmək öhdəliyindən azad edəcək. Azərbaycanda qeydə alınmış xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin qrant vermək hüququ isə, onların qeydə alındığı andan yaranmasına dair "Qrant haqqında" qanunun 2-ci maddəsinə yeni norma əlavə edilməlidir.

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

- Qanunun 3-cü maddəsinin 2-ci bəndinin 5-ci hissəsindəki *(həmin resipiyentlər yalnız bu Qanunun 2-ci maddəsinin 2-ci və 4-cü hissələrində nəzərdə tutulmuş donorlardan, habelə xarici hüquqi şəxslərin Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış filial və nümayəndəlikləri ("Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sazişi bağlamış xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri) olan donorlardan qrant ala bilərlər)* ifadəsi çıxarılmalıdır.

Bunlarla yanaşı "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası" və "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"nda aşağıdakı müddəalar çıxarılmalıdır:

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

“Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası”nda:

- 2.2.-ci bəndindən “sənədlər xarici ölkədə tərtib olunduqda, leqallaşdırılmalı və ya onlara apostil verilməlidir.” cümləsi;

- “resipiyentin Qanunun 3-cü maddəsinin 2-ci hissəsi ilə müəyyən edilmiş meyarlara uyğun olması və qrantın Qanunun 2-ci maddəsində nəzərdə tutulmuş donorlardan əldə edilməsi” məzmunlu 3.1.3.-cü yarımbəndi;

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

- “Qanunun 4-cü maddəsinin 3-cü hissəsinə əsasən layihənin həyata keçirildiyi dövrdə qrant vəsaitlərinin təyinatının dəyişdirilməsi, qrant hesabına əldə edilən dəyərlərin satılıb pula çevrilməsi şərtləri müqavilədə (qərarda) nəzərdə tutulmadığı hallarda donorun buna yazılı razılığının verilməsi” məzmunlu 3.1.8. yarımbəndi;

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

- "müqavilənin (qərarın) müddəalarının aydın ifadə olunması və həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin dəqiq göstərilməsi" məmunlu 3.1.9. yarımbəndi;

- "bu Qaydanın 3.1-ci bəndində göstərilən məsələlər üzrə araşdırma nəticəsində çatışmazlıqlar aşkar edildikdə" məzmunlu 5.1.2.-ci yarımbəndi.

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

“Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası”nda:

“2.4.-ci bənddən “Xarici ölkədə tərtib olunmuş sənədlər leqallaşdırılmalı və ya onlara apostil verilməlidir.” cümləsi;

“Qrantın yönəldildiyi sahənin ehtiyaclarının dövlət tərəfindən ödənilməsi qrantın maliyyə-iqtisadi cəhətdən məqsədəmüvafiq hesab olunmaması üçün əsasdır.” məzmunlu 3.3.-cü yarımbəndi;

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

“Qrantın verilməsi məqsədi və onun maliyyə-iqtisadi əsaslandırılması qeyri-dəqiq göstərildikdə, qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyin verilməsindən imtina edilir və bu Qaydanın 3.1-ci bəndində göstərilən müddətdə əlaqələndirici dövlət orqanına bu barədə məlumat verilir.” məzmunlu 3.4. bəndi.

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” qanundan aşağıdakı dəyişikliklər təklif edilir:

- 8.1.-ci maddədəki “40 gündən güc olmayaraq” sözləri “5 gündən gec olmayaraq” sözləri ilə əvəz edilsin;

- 8.2.-ci maddədəki “30 gün müddətində” ifadəsi və “Müstəsna hallarda yoxlama zamanı əlavə araşdırma aparılması zərurəti yarandıqda, bu müddət daha 30 günə qədər artırıla bilər.” cümləsi çıxarılsın;

- 9-cu maddədən “qeydə alınmış faktların sonrakı dəyişikliyinin qeydə alınması” ifadəsi çıxarılsın;

# Qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hüquqi mühitin inkişafı

- “Azərbaycan Respublikasında xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin dövlət qeydiyyatı ilə bağlı saziş.” məzmunlu 6.1.2-1.-ci maddəsi çıxarılsın;

- “Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim olunmuş sənədlər Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və digər qanunvericilik aktlarına zidd olduqda;” məzmunlu 11.3.1.-ci maddəsi çıxarılsın;

-“hüquqi şəxs statusu almaq istəyən qurumların məqsədləri, vəzifələri və fəaliyyət formaları qanunvericiliyə zidd olduqda;” məzmunlu 11.3.2.-ci maddəsi çıxarılsın.

# Qeyri-hökumət təşkilatlarının qərarların qəbulu və ictimai nəzarət proseslərində iştirakının genişlənidirilməsi

- Qeyri-hökumət təşkilatlarının qanunvericilik prosesinə cəlb olunması. Bu məqsədlə QHT-lərin Azərbaycan Respublikası Milli Məclisinin daimi komitələrinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının qanunvericilik məsələləri ilə məğul olan müfaviq strukturlarının işinə cəlb edilməsi;
- Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında yaradılan bütün İctimai Şuralarda qeyri-hökumət təşkilatlarının geniş təmsilçiliyinin təmin olunması;

# Qeyri-hökumət təşkilatlarının qərarların qəbulu və ictimai nəzarət proseslərində iştirakının genişlənidirilməsi

- Parlament komitələri və İcra hakimiyyəti orqanlarının QHT-lərlə birgə normativ-hüquqi aktların və onların layihələrinin ictimai dinləmələrinin keçirilməsi;
- Müvafiq icra hakimiyyəti orqanları ilə QHT-lər arasında ictimai əhəmiyyət kəsb edən məsələlərin qeyri-hökumət təşkilatları ilə birgə ictimai müzakirələrinin keçirilməsi;

# Qeyri-hökumət təşkilatlarının xidmətlər sahəsində iştirakının gücləndirilməsi

- Qeyri-hökumət təşkilatlarının sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün vergi və digər güzəştlərin müəyyən edilməsi;
- Qeyri-hökumət təşkilatlarının dövlət satınalmalarında iştirakının genişləndirilməsi;
- Qeyri-hökumət təşkilatlarının sosial xidmətlər sahəsində iştirakının gücləndirilməsi;
- Qeyri-hökumət təşkilatlarına kommersiya sektoru tərəfindən dəstəyin verilməsi.

# Qeyri-hökumət təşkilatlarının fəaliyyətinin digər məsələləri

- Qeyri-hökumət təşkilatlarının güzəştli şərtlərlə ofislərlə təmin edilməsi;
- Qeyri-hökumət təşkilatlarının güzəştli şərtlərlə ofis avadanlıqları ilə təmin edilməsi;
- Qeyri-hökumət təşkilatlarının fəaliyyətinə könüllülərin cəlbinin stimullaşdırılması;
- Ali təhsil müəssisələrinin humanitar yönümlü fakültələrində qeyri-kommersiya hüququ fənninin tədris olunması;
- Qeyri-hökumət təşkilatlarının fəaliyyətinin işıqlandırılması üçün İTV-də 1 saatlıq həftəlik proqramın yayımlanması.

# TƏŞƏKKÜRLƏR